# Zinkomastik MIO

## Texniki Məlumat Səhifəsi

### Məhsul təqdimatı

İki komponentli, antikorroziv xüsusiyyətlərə malik amin kürlənməli epoksid boyadır. Mikalı dəmir oksid (MİO) piqment tərkibli boya sürətli quruma xüsusyyətinə və yüksək qatı maddə miqdarına sahibdir. Xüsusilə qatlar arasında qısa gözləmə müddəti tələb olunan səthlərdə istifadə olunur. Astar, araqat, sonqat və ya tək qat olaraq da istifadə oluna bilər. Mənfi temperaturlarda tətbiq oluna bilər.

### İstifadə olunacaq səthlər

C5I və C5M (ISO 12944-2) standartına uyğun korroziya dayanıqlılığı ehtiyac olan polad konstruksiya və metal səthlərdə istifadə oluna bilər. Dəniz mühitində, emal zavodlarında, elektrik stansiyalarında, körpülərdə, binalarda və mədən avadanlıqlarında istifadəsi tövsiyyə olunur.

### Film qalınlığı və nəzəri yayılma sahəsi

| | Ən az | Ən çox | Tövsiyə edilən |
|---|---|---|---|
| **Film qalınlığı, quru (µm)** | 75 | 250 | 100 |
| **Film qalınlığı, yaş (µm)** | 107 | 357 | 143 |
| **Nəzəri yayılma sahəsi ($m^2$/l)** | 9.3 | 2.8 | 7.0 |

### Fiziki xassələri

| | | |
|---|---|---|
| **Rəng** | | Boz (Ral rəngləri ilə rənglənə bilər) |
| **Qatı maddə miqdarı** | ASTM D2697-03 | 71%±2 (by volume) |
| **Sıxlığı (gr/$sm^3$)** | ASTM D1475-13 | 1.54±0.02 |
| **Özlülüyü (25°C) KU** | ASTM D562-10 | 105±5 |
| **Parıldama nöqtəsi** | ISO 3679 | 32°C±2 |
| **Parlaqlıq (GU 60$^0$C)** | ASTM D523-14 | Yarımat (10-70) |
| **Qarışım ömrü (23°C)** | | 2-3 saat |
| **Qarışım nisbəti (kütləcə)** | | 6.8 vahid A Komp., 1 vahid B Komp. |
| **İncəltici** | | 5-10 % Epoksid Tiner ilə incəldilməlidir |
| **İstiyə dayanıqlılıq** | | 120°C-yə qədər (140°C maksimumda 1 saat) |

Bütün nəticələr qarışım (A+B) nəticələridir və rəngə görə kiçik fərqliliklər göstərə bilər.

### Səthin hazırlanması

Bütün səthlər təmiz, quru və kirdən təmizlənmiş olmalıdır. Səth ISO 8501 standartına görə dəyərləndirilməli və buna uyğun olaraq hazırlanmalıdır.

- **Polad səth** — Sa 2½ səviyyəsində blast təmizləməsi (ISO 8501-1) ən uyğun təmizlikdir. Ancaq mühit şərtlərinə bağlı olaraq minimum St 2 səviyyəsində mexaniki səth təmizliyi də qəbul olunur.
- **Galvanizə səth** - Sa 1 səviyyəsində blast təmizləməsi (ISO 8501-1) ən uyğun təmizlikdir.
- **Alüminium** səth - Sa 2½ səviyyəsində blast təmizləməsi (ISO 8501-1) ən uyğun təmizlikdir.
- **Shopprimerlənmiş polad** — Səth quru və təmiz olmalıdır. Ehtiyac olduğu zaman səth Sa 2 səviyyəsində təmizlənməlidir.
- **Boyanmış səth** — Səth quru və təmiz olmalıdır. Köhnə boya ISO 12944 standartına uyğun olmalıdır.

**"CMT Group" MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 502 45 50
Faks: (+994 12) 502 45 51
E-mail: office@cmt.com.az
Web-site: www.knarrpaints.com

## İstifadə üsulları

| | |
|---|---|
| **Püskürtmə** | Havasız tapança və ya konvensiyalı tapança istifadə oluna bilər |
| **Fırça** | Kəstirmələr və kiçik sahələrdə tətbiq üçün məsləhət görülür. Bəlirlənən film qalınlığında tətbiqetməyə diqqət edilməlidir. |

## Hidravlik tapança ilə tətbiq məlumatları

| | |
|---|---|
| **Ucluq** | 0.33 — 0.58 mm (0.013-0.023”) |
| **Təzyiq** | 15 MPa/2100 psi |

## Quruma zamanı

Quruma zamanı əsasən hava şərtlərinə, çəkilən qat qalınlığına və çəkilən qat sayına bağlıdır. Aşağıdakı cədvəldə boyanın hava temperaturundan asılı olaraq təqribi quruma zamanı göstərilmişdir.

- Boyanacaq ərazi yaxşı havalandırılmalıdır (Açıq hava və ya sərbəst hava dövretməsi) - Boya məsləhət edilən qalınlıqda vurulmalıdır
- Qalınlıq vurulacaq qatların sayı nəzərə alınaraq vurulmalıdır.

| **Havanın tempraturu** | **-5$^o$C** | **0$^o$C** | **10$^o$C** | **23$^o$C** | **40$^o$C** |
|---|---|---|---|---|---|
| **Üst quruma** | 16 saat | 11 saat | 2 saat | 1 saat | 30 dəq |
| **Sərt quruma** | 38 saat | 24 saat | 6 saat | 3 saat | 2 saat |
| **Tam (sərt) quruma** | | 21 gün | 8 gün | 4 gün | 3 gün |
| **İkinci qatın vurulması, ən az** | 24 saat | 14 saat | 4 saat | 2 saat | 1 saat |

Yuxarıda göstərilmiş məlumatlar qaydalara əməl olunmaqla müəyyən olunmuşdur. Quruma vaxtı film qalınlığına, havalandırmaya, səthdə var olan boya sisteminə, boyanın keçirdiyi əməliyyatlara, mexaniki dayanıqlılığına və qatılmış tiner miqdarına bağlı olaraq arta və ya azala bilər.

## Məhsul uyğunluğu

Boya müxtəlif astar və son qatlarla birlikdə istifadə oluna bilər. Bəziləri aşağıda göstərilmişdir. Daha dəqiq sistemlər üçün şirkətimizlə əlaqə saxlamağınız məsləhət görülür:

Öncəki qat: qeyri-üzvi zink silikat shop primer, zink epoksid, epoksid, epoksid məcun, zink silikat, üzvü shop primer

Növbəti qat: akrilik, epoksid, poliuretan, polisiloksan

## Tipik boya sistemi

| | |
|---|---|
| **Knarr Zinkomastik EZP** | 1 x 100 µm |
| **Knarr Zinkomastik MİO** | 1 x 100 µm |
| **Knarr Powercoat AS** | 1 x 60 µm |

Digər sistemlər tətbiq sahəsinə görə müəyyən oluna bilər.


**“CMT Group” MMC**

Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan

Tel: (+994 12) 502 45 50

Faks: (+994 12) 502 45 51

E-mail: office@cmt.com.az

Web-site: www.knarrpaints.com

CMT CASPI - MARINE TECHNOLOGIES

# Zinkomastik MIO
## Texniki Məlumat Səhifəsi

### Saxlama şərtləri
Boya ərazi şəraiti diqqətə alınaraq quru, sərin, yaxşı havalandırılmış, yüksək temperatur və qığılcım çıxma ehtimalı olmayan depolarda qapağı açılmamış halda saxlanmalıdır. İstifadə etməzdən öncə yaxşı qarışdırılmalıdır. Qablar sıx bağlanmalıdır. Rəf ömrü (23°C-də) 24 aydır.

### Qablaşdırılma şəkli
17 KQ-lıq A Komponenti və 2.5 KQ-lıq B Komponenti olaraq istehsal olunur.

### Tətbiq edən operator
Bu məhsul professional istifadə üçün nəzərdə tutulub. Tətbiq edən şəxs və ya operator təcrübəli və məhsul barədə məlumatlı olmalıdır. Sözü gedən şəxs boyanı tələbnaməyə uyğun olaraq qarışdırmalı və tətbiq etməlidir. Tətbiqdə iştirak edən işçilər təhlükəsizlik avadanlıqları ilə təmin olunmalıdır.

### Məhsulun rəngi
Məhsulun rəngində partiyadan partiyaya kiçik fərqlilikləri mövcud ola bilər. Bu növ məhsullarda atmosfer şəraitinə və günəş işığından asılı olaraq rəng solması və təbaşirlənmə ola bilər.

### Diqqət
Yuxarıdakı məlumatlar laboratoriya sınaqları və sahə tətbiqlərində əldə olunan nəticələr əsasında hazırlanmışdır. Şirkətin idarəsi xaricində olan tətbiqetmələrdə şirkət sadəcə boyanın keyfiyyətinə cavabdehdir. Tətbiqetmə və tətbiqetmə xətalarından yarana biləcək problemlərə görə cavabdehlik daşımır.

### Sağlamlıq və təhlükəsizlik qaydaları
Qabın üzərində göstərilən qaydalara riayət edin. Yüksək temperatur və qığılcım çıxma ehtimalı olmayan depolarda saxlayın. Yaxşı havalandırılan ərazilərdə istifadə edin. İstifadə zamanı dəriylə təmas olmuşdursa, uyğun həlledici ilə sonra su və sabunla yuyulmalıdır. Gözə düşdüyündə bol su ilə yuyulub gərək olduğunda tibbi müdaxilə olunmalıdır.

---

**Qeyd:** — CMT Group” MMC şirkəti xəbərdarlıq etmədən texniki məlumat səhifəsindəki məlumatları dəyişdirmə hüququnu özündə saxlayır.

**“CMT Group” MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 502 45 50
Faks: (+994 12) 502 45 51
E-mail: office@cmt.com.az
Web-site: www.knarrpaints.com